**İsbəndiyarov Q.K.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.57-68**
**UOT: 34.343**

# Cəzaçəkmə müəssisələrində saxlanılan qadın məhkumların sanitar və gigiyenik vasitələr (ləvazimatlar) ilə təminatı normalarına dair bəzi məsələlər

**Xülasə:** Məqalədə cəzaçəkmə müəssisələrində saxlanılan qadın məhkumların sanitar və gigiyenik vasitələr (ləvazimatlar) ilə təmin edilməsi məsələləri AR Cəzaların İcrası Məcəlləsi və AR Nazirlər Kabinetinin Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə qərarı ilə yanaşı işgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsininhesabatlarında verilmiş tövsiyələr əsasında araşdırılmış və onlara dair təkliflər verilmişdir.

**Açar sözlər:** qadın məhkumlar; cəzaçəkmə müəssisələri; maddi-məişət normaları; sanitar və gigiyenik vasitələr (ləvazimatlar); tövsiyələr; qeyri-insani, ləyaqəti alçaldan; işgəncə.

Cəzaçəkmə müəssisələrində saxlanılan qadın məhkumların sanitar və gigiyenik vasitələr (ləvazimatlar) ilə təminatı normalarının pozulması həm cəmiyyətimizin, həm də beynəlxalq təşkilatların nəzər nöqtəsində olan və daimi onlar tərəfindən izlənilən aktual bir problemə çevirmişdir. Belə bir problemlərin mövcud olması beynəlxalq təşkilatları hərəkətə gətirmiş və nəticədə bu məsələ ilə əlaqədar Azərbaycan hökümətinə onların hesabatlarında ciddi tövsiyələr verilmiş və həlli yolları ilə çağırışlar edilmişdir.

Beləki, İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (bundan sonra CPT) 2016-cı il martın 29-dan aprelin 8-dək Azərbaycana həyata keçirdiyi periodik (dövrü) səfər barədə Azərbaycan Hökumətinə dair hesabatının 99-cu paraqrafında “Şəxsi gigiyena vasitələrinə gəlincə, məhbuslar az miqdarda sabun, yuyucu vasitə, tualet kağızı və dəsmal alıblar. Bununla belə, qadınların aylıq ehtiyacları üçün sanitar materiallar yalnız, gəldikdən sonra bir dəfə verilirdi; sonradan onları pulla almaq və ya evdən qəbul etmək imkanı olmayan məhkumlar (məhbuslar) köhnə paltarlardan cırılmış sarğı və ya zolaqlardan istifadə etməli olurdular ki, bu da məhbuslar tərəfindən alçaldıcı rəftar kimi qəbul edilirdi və bildirildiyinə görə, məhbuslar arasında münaqişə mənbəyi olmuşdur. CPT-nin fikrincə, qadın məhbusların ləyaqətini alçaldıcı rəftara məruz qoymaq üçün onların ləyaqətini qoruyan zəruri olan əsas əşyalardan məhrum edirdilər. Komitə Azərbaycan hakimiyyətini 4 saylı Cəzaçəkmə Müəssisəsində və müvafiq hallarda qadın məhbusların yerləşdiyi bütün digər cəzaçəkmə müəssisələrində yuxarıda qeyd olunan sanitariya materialları ilə adekvat təchizatını təmin etməyə çağırır”.

Cəzaların İcrası Məcəlləsinin maddə 91. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin maddi məişət

♦ **Isbəndiyarov Qələndər Köçəri oğlu -** Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi tabeliyində Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin “Hüquqi tədqiqat” şöbəsinin hüquq tədqiqatçısı (Azərbaycan). E-mail: q.isbandiyarov@gmail.com

təminatına müvafiq olaraq “91.1. Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzaçəkmə müəssisələrində sanitariya və gigiyena qaydalarına uyğun zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar.” qeyd edilmişdir.

Həmçinin, Cəzaların İcrası MəcəlləsininMaddə 93. Məhkumların tibbi-sanitariya təminatına müvafiq olaraq “93.3. Cəzaçəkmə müəssisələrinin müdiriyyəti məhkumların ümumi və şəxsi sanitariya-gigiyena tələblərinə əməl edilməsini təmin edir;”qeyd edilmişdir. Adları qeyd edilən maddələrdə “sanitariya və gigiyena qaydalarına”, “sanitariya-gigiyena tələblərinə” kimi ifadələr öz əksini tapsada, Azərbaycan Cəzaların İcrası Məcəlləsinin10-cu maddəsində “məhkumun əsas hüquqları” sırasında “(şəxsi) sanitar və gigiyenik vasitələr (ləvazimatlar) almaq kimi hüququ” öz əksini tapmamışdlr.

Cəzaların İcrası Məcəlləsinin 91.1. ....məhkum olunmuş şəxslər cəzaçəkmə müəssisələrində sanitariya və gigiyena qaydalarına uyğun zəruri maddi-məişət şəraiti ilə təmin olunurlar və 93.3. Cəzaçəkmə müəssisələrinin müdiriyyəti məhkumların ümumi və şəxsi sanitariya-gigiyena tələblərinə əməl edilməsini təmin edir kimi verilmiş normalarından aydın olur ki, sanitariya-gigiyena qaydalarının və tələblərinin təmin edilməsi cəzaçəkmə müəssisəsinin (penitensiar müəssisənin) rəhbərliyi və məhkumlar üzərinə qoyulan bir vəzifədir.

Ümumiyyətlə, biz məsələnin həllinə nail olmaq üçün “sanitariy və gigiyena” sözlərinin lüğəvi və sair anlayışlarını (definisiyalarını) nəzərdən keçirməliyik.

Sanitariya - latın sözü olub “sanitars”- sağlamlıq və “ars” - sənət mənasını verir. Əhalinin sağlamlığını mühafizə etməyə və təmizliyi gözləməyə yönəldilmiş, gigiyenanın elmi tələblərinə əsaslanan tədbirlər sistemi kimi başa düşülür [12].

Gigiyena – yunan sözü olub hygieinos – şəfaverici deməkdir. Xarici mühitin müxtəlif amillərinin insan orqanizminə təsirini və sağlamlığı qoruma tədbirlərini öyrənən elmdir. Gigiyena qaydaları, sağlamlığı qoruyan təcrübi tədbirlərin məcmusu və əmək gigiyenası kimi bölgüsü vardır [13].

Başqa bir mənbədə gigiyena qədim yunan sözü olub “ὑγιεινόν” – “sağlam” mənasını ifadə edir. Tibbin həyat şəraitinin, insan əməyinin insana təsirini və müxtəlif xəstəliklərin profilaktikasını öyrənən sahəsidir. İnsan sağlamlığını qorumağı əmək və istirahətin düzgün təşkilini öyrənir. Bu sağlamlığı qorumağa və ömrü uzatmağa kömək edir. Gigiyena sözü Qədim Yunan mifologiyasından götürülmüşdür. Qədim Yunanların təbabət tanrısı Asklepinin (yun. Ἀσκληπιός, Asklepios) beş qızından biri olan Higieya (q.yun. Ὑγιεία) təmizlik ilahəsi idi.

Şəxsi gigiyenanın mənası isə sağlamlığı qorumağa və möhkəmləndirməyə kömək edən gigiyena qaydaları toplusu kimi başa düşülür. Bu qaydalar orqanizmə təsir edən aşağıdakı təsirləri neytrallaşdırır:

Bioloji-mikroorqanizmlər, parazitlər, həşarətlər, antibiotiklər və sair biosubstratlar. Fiziki – səs, vibrasiya, elektromaqnit dalğalar, iqlim və s. Kimyəvi – kimyəvi element və kimyəvi birləşmələr [14].

Həmçinin, “Əhalinin sağlamlığının qorunması haqqında”Azərbaycan Respublıkasının 26 iyun 1997-ci il № 360-IQ Qanununun *preambula (giriş) hissəsində* “sanitariya və gigiyena” ifadələri təsbit edilmişdir. Orada deyilir: “Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir”. Göründuyü kimi burda da sanitariya və gigiyena ifadələrinin ayrı-ayrılıqda tam qanunuvericilik anlayışı verilməmişdir.

Həmin qanunun 23-cü maddəsi "Tutulmuş, həbs edilmiş vətəndaşların, cəzaçəkmə müəssisələrində məhkumların tibbi yardım almaq hüququ" nu nəzərdə tutmuşdur. Lakin, bu qanunda onların, xüsusən də cəzaçəkmə müəssisələrində məhkumların sağlamlıqlarının qorunması məqsədi ilə gündəlik, həftəlik və aylıq və ilin rüblükləri üzrə onların şəxsi sanitar və gigiyenik vasitələri almaq hüququ təsbit edilməmişdir.

Azərbaycan Respublikasının Sanitariya-epidemioloji salamatlıq haqqında10 noyabr 1992-ci il № 371 Qanunun 3-cü maddəsində "Sanitariya normaları və qaydaları, gigiyena normativləri" kimi norma öz əksini tapmışdır. Həmin maddədə deyilir: Sanitariya normaları və qaydaları, gigiyena normativləri ətraf mühit amillərinin insan üçün təhlükəsizliyi və ya zərərsizliyi meyarlarını və insanın həyat və fəaliyyəti üçün əlverişli şərait yaradılması tələblərini müəyyən edən normativ aktlardır.

Azərbaycan Respublikası ərazisində respublikanın sanitariya normaları və qaydaları, gigiyena normativləri qüvvədədir.

Bu qanunun təhlili də göstərir ki, konkret bir şəxs üçün günlük və sair müddətlər üzrə istifadə barəsində sanitar və gigieynik vasitələrin (ləvazimatların) sayı və və həcminə (normatlvlərinə) dair normativ məlumatlara rast gəlinmir.

Avropa Şurası Nazirlər Komitəsinin Avropa Penitensiar Qaydaları haqqında [1] Nazirlər Komitəsinin üzv dövlətlərə Tövsiyəsi Rec (2006) 2(11 yanvar 2006-cı il tarixdə Nazirlər Komitəsi tərəfindən Nazirlər müavinlərinin 952-ci iclasında qəbul edilmişdir).

Avropa Penitensiar Qaydalarının II Hissəsinin 19.1-21 maddələrində gigiyena və geyim və yataq dəstləri aşağıdakı məzmunda verilmişdir.

1) Gigiyena

19.1 Hər bir həbsxananın bütün hissələri lazımi qaydada saxlanılmalı və hər zaman təmiz saxlanılmalıdır.

19.2. Məhkumlar cəzaçəkmə müəssisəsinə daxil olduqda onların ayrıldıqları kameralar və ya digər yaşayış yerləri təmiz olmalıdır.

19.3 Məhkumların gigiyenik qaydalara uyğun və şəxsi həyatın toxunulmazlığına hörmətlə yanaşan sanitar qovşaqlara giriş imkanı olmalıdır.

19.4 Adekvat şərait yaradılmalıdır ki, hər bir məhbus iqlimə uyğun temperaturda, mümkünsə hər gün, lakin ümumi gigiyena baxımından ən azı həftədə iki dəfə (və ya zəruri hallarda daha tez-tez) hamam və ya duş qəbul edə bilsin.

19.5 Məhkumlar şəxsi geyimlərini və yataq yerlərini təmiz və səliqəli saxlamalıdırlar.

19.6 Penitensiar müəssisənin rəhbərliyi onları bunun üçün vasitələrlə, o cümlədən sanitar ləvazimatları, ümumi təmizlik vasitələri və materialları ilə təmin etməlidir.

19.7 Qadınların sanitar ehtiyacları xüsusi təmin edilməlidir.

Geyim və yataq dəsti

20.1. Müvafiq geyimi olmayan məhkumlar iqlim şəraitinə uyğun geyimlə təmin edilməlidirlər.

20.2 Belə geyim alçaldıcı və ya qeyri-insani olmamalıdır.

20.3 Bütün geyimlər yaxşı vəziyyətdə saxlanılmalı və lazım gəldikdə dəyişdirilməlidir.

20.4 Həbsxanadan kənara çıxmaq üçün icazə almış məhbuslardan onları məhbus kimi tanıdan paltar geyimələri tələb olunmur.

21. Hər bir məhbus ayrıca çarpayı və ayrıca və müvafiq yataq dəstləri ilə təmin edilməlidir, bu yataq dəstləri qaydasında saxlanılmalı və təmizliyini təmin etmək üçün kifayət qədər tez-tez dəyişdirilməlidir.

Nəticə etibarı ilə, Avropa Penitensiar Qaydalarının qadın məhkumların şəxsi sanitar və gigiyenik vasitələr (ləvazimatlar) ilə təmin edilməsi tələbi əsaslıdır.

Azərbaycan Respublikasının Konstitusiyasının 41-ci maddəsində “Hər kəsin sağlamlığının qorunması hüququ” tam olaraq qeyd edilmişdir. Həmin maddə məhkumların da sağlamlığının qorunması hüququnu özündə ehtiva edir.

Cəzaların icrası və çəkilməsi zamanı məhkumların sanitar və gigiyenik vasitələr (ləvazimatlar) almaq hüququnun Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin10-cu maddəsində birbaşa təsbit edilməsi zərurəti yaratmışdır.

Qeyd edilən hüququn CİM 10-cu maddəsində nəzərdə tutulmaması qanunda bir boşluq kimi və məhkumların hüquqlarının pozulması kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 41.2-ci maddəsində “Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir” kimi öz normativ əksini tapmışdır.

XX əsrin tanınınmış kriminoloquÇezari Bekkarianın cəzanın məqsədinə dair düşüncələri klassiklərdən fərqli olaraq diqqəti daha da cəlb edir. Çezari Bekkarianın düşüncələrinə görə “Bədbəxtlərin (zəzərçəkənlərin) ah-nalələri keçmişdə baş verənləri geri qaytara bilməz. Bu baxımdan da cəzanın məqsədi təqsirləndirilən şəxsin cəmiyyətə yenidən zərər vurmasına mane olmaq və başqalarını da belə işlərdən çəkindirmək olmalıdır.” Kriminoloqun fikrincə, elə cəzalaradan istifadə etmək lazımdır ki,bu cəza digər şəxslərə daha güclü və uzun müddət təsir etmək imkanına malik olsun və cinayətkara verilən cismani cəza mümkin qədər yumşaq olsun [11, s 40].

Həqiqət odur ki, Azərbaycan və Beynəlxalq ictimaiət qadın məhkumların minimum tələblərə uyğun sanitar və gigiyenik vasitələrlə təmin edilməməsi hallarını məhkəmənin dövlət adından çıxarılan hökmündə təyin edilən cəzadan kənar onlar barəsində edilən işgəncə, qeyri-insani və ləyaqəti alçaldan rəftar kimi qiymətləndirirlər.

Qadın məhkumların şəxsi sanitar və gigiyenik vasitələrlə təmini cəzanınməqsədi kim onların islah edilməsi ilə həmahəng olmalı və uzlaşmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə” 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli qərarıılə 24 nömrəli əlavə ilə Cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin sabun və yuyucu tozla, diş fırçası və pasta ilə təminatı normaları təsdiq edilmişdir.

| Sıra N-si | Müəssisələr | 1 nəfərə 1 ay müddətinə | | | 1 ilə | 3 aya |
|---|---|---|---|---|---|---|
| | | təsərrüfat sabunu | əl-üz sabunu | yuyucu toz | diş fırçası | Pasta |
| 1. | Cəzaçəkmə müəssisələri~~,~~ ~~təcridxanalar~~ [13] | 250 qr. | 100 qr. | 150 qr. | 1 | 1 |
| 2. | Tərbiyə müəssisəsi və müalicə müəssisəsi | 400 qr. | 100 qr. | 200 qr. | 1 | 1 |
| 3. | Müalicə müəssisəsi | 300 qr. | 100 qr. | 200 qr. | 1 | 1 |
| 4. | Doğum və uşaq evləri | 400 qr. | 200 qr. | 500 qr. | 1 | 1 |

24-cü əlavədən göründüyü kimi cəzaçəkmə müəssisələrində saxlanılan qadın məhkumların sanitar və gigiyenik vasitələr (ləvazimatlar) ilə təmin edilməsi üçün nəzərdə tutulan normativlərdə çox aşağıdır və bir çox vasitlər ümumiyyətlə, nəzərdə tutulmamışdır.

Bu cür sanitar və gigiyenik vasitələrin (lavazimatların) qadın məhkumlara adekvat olmaması onlar arasında tez bir zamanda xəstəliklərin yaranmasına və yayılmasına səbəb olur. Nəticədə, onların sağlamlıqlarının bərpası üçün tibbi vasitələrin, dərmanların (preparatlar) və sairlərin istifadəsi artır və dövlət büdcəsi əsasız olaraq yüklənir.

İşgəncə və Qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitesi (CPT) azadlıqdan məhrum edilmiş qadınlara qarşı pis rəftarın qarşısının alınmasına verdiyi əhəmiyyəti vurğulamaq üçün öz hesabatında (29 mart və 8 aprel 2016-ci il) və sair hesabatlarında Azərbaycan Respublikasında qadın məhkumların gigyenik vasitələrlə normal təmin edilməməsi işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar kim qiymətləndirilmişdir.

İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun 3-cü maddəsində deyilir: Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədi ilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

“İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarına müvafiq olaraq, “İşgəncələrin qadağan olunması” haqqında 3-cü maddəsində deyilir: Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı 10 dekabr 1984-cü il tarixli Konvensiyasına və İşgəncə və Qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin tövsiyələrini əsasasən Azərbaycan Respublikasının Cəzaların İcrası məcəlləsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə” 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli qərarına “X” nömrəli əlavə “Cəzaçəkmə müəssisələrində saxlanılan qadın məhkumların sanitar və gigyenik vasitələr (ləvazimatlar) ilə təminatı normaların əlavə və dəyişiklərin edilməsi məqsədə uyğundur.

1) Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi

Maddə10. Məhkumların əsas hüquqları

10.2.2-2. gigiyenik və sanitar vasitələr (ləvazimatlar) almaq;

2) Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədə” 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli qərarına“X” nömrəli əlavə

Cəzaçəkmə müəssisələrində saxlanılan qadın məhkumların sanitar və gigiyenik vasitələr (ləvazimatlar) ilə təminatı normaları

| Sıra N-si | vasitələrin (ləvazimatların) adı | 1 nəfər üçün vasitələrin (ləvazimatların) miqdarı | 1 nəfərə ay müddətinə |
|---|---|---|---|
| 1. | Təsərrüfat sabunu | 250 qr | 1 ay |
| 2. | Əl-üz sabunu | 100 qr | 1 ay |

| | | | |
|---|---|---|---|
| 3. | Paltar yuyucu tozu | 500 | 1 ay |
| 4. | Diş fırçası | 1 ədəd | 6 ay |
| 5. | Diş məcunu | 1 ədəd | 2 ay |
| 6. | Tüklərin təmizlənməsi üçün ülgüc | 15 ədəd | 1 ay |
| 7. | Menstruasiya bezi | 30 ədəd | 1 ay |
| 8. | Saç şampunu | 1000 | 1 ay |
| 9. | Qab şampunu | 500 qr | 1 ay |
| 10. | Tibbi spirt 95% | 100 ml | 2 ay |
| 11. | Tənzif sarğısı (yara bandı) | 2 ədəd | 6 ay |

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2001-ci il 25 sentyabr
tarixli 154 nömrəli qərarı ilə
təsdiq edilmişdir
12 nömrəli əlavə

Cəzaçəkmə müəssisələrində saxlanılan qadın məhkumların
geyim əşyaları normaları

| Sıra N-si | Əşyaların adı | 1 nəfər üçün əşyaların miqdarı | İstifadə müddəti |
|---|---|---|---|
| *10.* | *Alt köynəyi (nazik)* | ~~*2 ədəd*~~<br>*4 ədəd* | *2 il* |
| *20.* | *əl-üz dəsmalı* | *2 ədəd* | *1 il* |

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2001-ci il 25 sentyabr
tarixli 154 nömrəli qərarı ilə
təsdiq edilmişdir
16 nömrəli əlavə

Müalicə müəssisəsində saxlanılan qadın məhkumların
geyim və yatacaq ləvazimatı normaları

| Sıra N-si | Əşyaların adı | 1 nəfər üçün əşyaların miqdarı | İstifadə müddəti |
|---|---|---|---|
| 13. | *Əl-üz dəsmalı* | ~~*2 ədəd*~~<br>*3 ədəd* | *1 il* |

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2001-ci il 25 sentyabr
tarixli 154 nömrəli qərarı ilə
təsdiq edilmişdir
19 nömrəli əlavə

Məhkum hamilə qadınların doğuşdan qabaq istirahət və uşağı yemləmə zamanı geyim əşyaları normaları

| Sıra N-si | Əşyaların adı | 1 nəfər üçün əşyaların miqdarı | İstifadə müddəti |
|---|---|---|---|
| 13. | *Əl-üz dəsmalı* | ~~*2 ədəd*~~ *3 ədəd* | *1 il* |

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2001-ci il 25 sentyabr
tarixli 154 nömrəli qərarı ilə
təsdiq edilmişdir
20 nömrəli əlavə

Doğum sahəsində məhkum qadınların və südəmər uşaqların geyim və yatacaq əşyaları normaları

| Sıra N-si | Əşyaların adı | 1 nəfər üçün əşyaların miqdarı | İstifadə müddəti |
|---|---|---|---|
| 13. | *əl-üz dəsmal* | ~~*2 ədəd*~~ *3 ədəd* | *1,5 il* |
| 27. | *Uşaq bezi (pampers)* | *60 ədəd* | *1 ay* |

3) Məqalədə toxunduğum normativ aktlarda "sanitariya" və "gigiyena" ifadələrinə yer verilmişdir. Amma onların ayrılıqda geniş qanunvericilik anlayışları verilməmişdir. Hesab edirik ki, həmin ifadələrin tibb elminə əsaslanan ayrıca qanunvericilik anlayışlarının (definisiyalarının) Ali qanunvericilik orqanı tərəfindən verilməsi məqsədə uyğun olardı.

*Məqalə müəllifin mövqeyini əks etdirir.*

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasinin Konstitusiyası [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/897

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/46947

3. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi [Elektron resurs]. URL: https://www.e-qanun.az/framework/46951

4. Əhalinin sağlamlığının qorunması haqqındaAzərbaycan Respublıkasının qanunu [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4078

5. Sanitariya-epidemioloji salamatlıq haqqında Azərbaycan Respublikasının Qanunun [Elektron resurs]. URL: https://e-qanun.az/framework/7916

6. Məhkumların yemək və maddi-məişət normalarının təsdiq edilməsi barədəAzərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı [Elektron resurs]. URL: https://e-qanun.az/framework/2799

7.“İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: I. "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın 2005-ci il sentyabrın 15-də imzalanmış Fakültativ Protokolu Azərbaycan Respublikasının ona dair bəyanatı ilə təsdiq edilsin. II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir. İlham ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 2 dekabr 2008-ci il № 724-IIIQD [Elektron resurs]. URL: https://e-qanun.az/framework/16054

8. İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyaya qoşulmaq barədə AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: 1. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı 10 dekabr 1984-cü il tarixli Konvensiyasına qoşulsun. 2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir. Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV Bakı şəhəri, 31 may 1996-cı il № 103-IQ//https://e-qanun.az/framework/4087

9. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU Azərbaycan Respublikasının Milli Məclisi qərara alır: I. 1950-ci il noyabrın 4-də Roma şəhərində imzalanmış "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiya və onun 1, 4, 6 və 7 saylı Protokolları müvafiq bəyanatlar və qeyd-şərtlər ilə (bəyanatların və qeyd-şərtlərin mətnləri əlavə olunur) təsdiq edilsin. II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir. Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV Bakı şəhəri, 25 dekabr 2001-ci il № 236-IIQ [Elektron resurs]. URL: https://e-qanun.az/framework/1405

10.İşgəncələrin və Qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) 2016-cı il martın 29-dan aprelin 8-dək Azərbaycana həyata keçirdiyi səfər barədə Azərbaycan Hökumətinə hesabat [Elektron resurs]. URL: https://rm.coe.int/16808c5e43

11. Cinayətlər və cəzalar haqqında. Çezari Bekkaria, “Hüquq ədəbiyyatı”, Bakı, 2011,132 səh.

12. https://obastan.com/sanitariya/34689/?l=az
13. https://obastan.com/gigiyena/14777/?l=az
14. https://az.wikipedia.org/wiki/Gigiyena
15. https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016805d8d25

**Isbandiyarov G.K.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.57-68**
**UDC: 34.343**

## Some issues regarding the norms of provision of sanitary and hygienic means (supplies) to women prisoners kept in penal institutions (penitentiaries)

**Abstract:** In the article, the issues of providing sanitary and hygienic means (supplies) to women prisoners kept in penal institutions are discussed in addition to the Code of Azerbaijan Republic about execution of punishments and the decision of the Azerbaijan Republic Cabinet of Ministers on approving the food and material and household standards of prisoners based on the recommendations given in report to the Azerbaijani Government on the visit to Azerbaijan carried out by the European Committee for the Prevention of Torture and Inhuman or Degrading Treatment or Punishment (CPT) and proposals were made.

**Keywords**: women prisoners; penal institutions; material and household; sanitary and hygienic means (supplies); recommendations; inhuman, degrading treatment; torture.

### References

1. Constitution of the Republic of Azerbaijan. Available at: https://www.e-qanun.az/framework/897 (in Azerbaijani).
2. Criminal Code of the Republic of Azerbaijan. Available at: https://www.e-qanun.az/framework/46947 (in Azerbaijani).
3. Code of Execution of Punishments of the Republic of Azerbaijan. Available at: https://www.e-qanun.az/framework/46951 (in Azerbaijani).
4. Law of the Republic of Azerbaijan On protection of public health. Available at: https://e-qanun.az/framework/4078 (in Azerbaijani).
5. Law of the Republic of Azerbaijan on sanitary-epidemiological safety. Available at: https://e-qanun.az/framework/7916 (in Azerbaijani).
6. Decision of the Cabinet of Ministers of the Republic of Azerbaijan on approving food and living standards for prisoners. Available at: https://e-qanun.az/framework/2799 (in Azerbaijani).

♦ **Isbandiyarov Galandar Kochari oglu -** Legal researcher of the "Legal research" department of Institute of Law and Human Rights the Public Legal Entity under the Center for Legal Expertise and Legislative Initiatives Public Legal Entity (Azerbaijan). Email: q.isbandiyarov@gmail.com

7. LAW OF THE REPUBLIC OF AZERBAIJAN on approval of the Optional Protocol to the Convention against "Torture and other cruel, inhuman or degrading treatment or punishment" The Milli Majlis of the Republic of Azerbaijan decides: I. "Torture and other cruel, inhuman or degrading treatment or punishment" The Optional Protocol to the Convention against Degrading Treatment or Punishment, signed on September 15, 2005, should be approved by the statement of the Republic of Azerbaijan. II. This law shall enter into force on the day of its publication. Ilham ALIYEV, President of the Republic of Azerbaijan, Baku, December 2 No. 724-IIIQD of 2008. Available at: https://e-qanun.az/framework/16054 (in Azerbaijani).

8. LAW OF THE REPUBLIC OF AZERBAIJAN on joining the Convention against Torture and other Cruel, Inhuman or Degrading Treatment and Punishment The Milli Majlis of the Republic of Azerbaijan decides: 1. The Republic of Azerbaijan adopts the United Nations Convention on Torture and Other Cruel, Inhuman or Degrading Treatment and accede to the Convention of 10 December 1984 against forms of punishment. 2. This Law enters into force on the day of its publication. President of the Republic of Azerbaijan Heydar Aliyev Baku city, May 31, 1996 No. 103-IQ. Available at: https://e-qanun.az/framework/4087 (in Azerbaijani).

9. LAW OF THE REPUBLIC OF AZERBAIJAN on the approval of the Convention "On the Protection of Human Rights and Fundamental Freedoms" and its Protocols No. 1, 4, 6 and 7 The Milli Majlis of the Republic of Azerbaijan decides: I. "Human Rights Convention" signed on November 4, 1950 in Rome and on the protection of fundamental freedoms" to ratify the Convention and its Protocols No. 1, 4, 6 and 7 with relevant declarations and reservations (the texts of the declarations and reservations are attached). II. This Law enters into force on the day of its publication. President of the Republic of Azerbaijan Heydar Aliyev Baku city, December 25, 2001 No. 236-IIQ. Available at: https://e-qanun.az/framework/1405 (in Azerbaijani).

10. Report to the Government of Azerbaijan on the visit of the European Committee for the Prevention of Torture and Inhuman or Degrading Treatment or Punishment (CPT) to Azerbaijan from March 29 to April 8, 2016. Available at: https://rm.coe.int/16808c5e43 (in Azerbaijani).

11. On crimes and punishments. Cesare Beccaria. Baku, Huquq edebiyyati Publ., 2011,132 p.

12. https://obastan.com/sanitariya/34689/?l=az

13. https://obastan.com/gigiyena/14777/?l=az

14. https://az.wikipedia.org/wiki/Gigiyena

15. https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016805d8d25

**Исбендияров Г.К.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2023.70.57-68**
**УДК: 34.343**

## Некоторые вопросы норм обеспечения санитарно-гигиеническими средствами (предметами) осужденных женщин, содержащихся в учреждениях исполнения наказаний (пенитенциарных учреждениях)

**Аннотация:** Рассматриваются вопросы обеспечения санитарно-гигиеническими средствами (предметами) женщин-заключенных, содержащихся в пенитенциарных учреждениях, в дополнение к Кодексу Азербайджанской Республики об исполнении наказаний и постановлению Кабинета Министров Азербайджанской Республики об утверждении режима питания и материально-бытовые нормы заключенных на основе рекомендаций, данных в отчете правительству Азербайджана о визите в Азербайджан Европейского комитета по предотвращению пыток и бесчеловечного или унижающего достоинство обращения или наказания (ЕКПП) и были внесены предложения.

**Ключевые слова:** осужденные женщины; пенитенциарные учреждения; материально-бытовые нормы; санитарно-гигиенические средства (принадлежности); рекомендации; бесчеловечное, унижающее достоинство обращение; пытки.

## Библиография

1. Конституция Азербайджанской Республики.[Электронный ресурс]. URL: https://www.e-qanun.az/framework/897 (на азерб. яз.).

2. Уголовный кодекс Азербайджанской Республики [Электронный ресурс]. URL: https://www.e-qanun.az/framework/46947 (на азерб. яз.).

3. Кодекс Азербайджанской Республики Об исполнении наказаний. [Электронный ресурс]. URL: https://www.e-qanun.az/framework/46951 (на азерб. яз.).

4. Закон Азербайджанской Республики Об охране здоровья населения. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/4078 (на азерб. яз.).

5. Закон Азербайджанской Республики о санитарно-эпидемиологической безопасности. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/7916 (на азерб. яз.).

6. Постановление Кабинета Министров Азербайджанской Республики об утверждении условий питания и быта заключенных. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/2799 (на азерб. яз.).

7. ЗАКОН АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ «Об утверждении Факультативного протокола к Конвенции против пыток и других жестоких, бесчеловечных или унижающих

[♦] **Исбендияров Галандар Кочари оглы** - исследователь права отдела «Правовые исследования» публичного юридического лица «Институт права и прав человека» при публичном юридическом лице «Центр правовой экспертизы и законодательных инициатив» (Азербайджан). Email: q.isbandiyarov@gmail.com

достоинство видов обращения и наказания» Милли Меджлис Азербайджанской Республики постановляет: I. «Пытки и другие жестокие, бесчеловечные или унижающие достоинство обращение или наказание» Факультативный протокол к Конвенции против унижающего достоинство обращения и наказания, подписанный 15 сентября 2005 года, должен быть одобрен заявлением Азербайджанской Республики. II. Настоящий Закон вступает в силу со дня его опубликования. Ильхам АЛИЕВ, Президент Азербайджанской Республики, Баку, 2 декабря № 724-IIIQD 2008 года. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/16054 (на азерб. яз.).

8. ЗАКОН АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ О присоединении к Конвенции против пыток и других жестоких, бесчеловечных или унижающих достоинство видов обращения и наказания Милли Меджлис Азербайджанской Республики постановляет: 1. Азербайджанская Республика принимает Конвенцию Организации Объединенных Наций против пыток и других жестоких, бесчеловечных или унижающих достоинство видов обращения и наказания. или унижающее достоинство обращение и присоединиться к Конвенции от 10 декабря 1984 г. против форм наказания. 2. Настоящий Закон вступает в силу со дня его опубликования. Президент Азербайджанской Республики Гейдар Алиев город Баку, 31 мая 1996 года № 103-IQ. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/4087 (на азерб. яз.).

9. ЗАКОН АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ «Об утверждении Конвенции «О защите прав человека и основных свобод» и протоколов к ней № 1, 4, 6 и 7 Милли Меджлис Азербайджанской Республики постановляет: I. «Права человека Конвенция», подписанная 4 ноября 1950 г. в Риме, и о защите основных свобод» о ратификации Конвенции и Протоколов к ней № 1, 4, 6 и 7 с соответствующими заявлениями и оговорками (тексты заявлений и оговорок прилагаются) II.Настоящий Закон вступает в силу со дня его опубликования Президент Азербайджанской Республики Гейдар Алиев. г. Баку, 25 декабря 2001 года № 236-IIQ. [Электронный ресурс]. URL: https://e-qanun.az/framework/1405 (на азерб. яз.).

10. Доклад правительству Азербайджана о визите Европейского комитета по предотвращению пыток и бесчеловечного или унижающего достоинство обращения или наказания (ЕКПП) в Азербайджан с 29 марта по 8 апреля 2016 года. [Электронный ресурс]. URL: https://rm.coe.int/16808c5e43 (на азерб. яз.).

11. О преступлениях и наказаниях. Чезаре Беккариа. - Баку, Юрид. лит., 2011.- 132 с. (на азерб. яз.)

12. https://obastan.com/sanitariya/34689/?l=az

13. https://obastan.com/gigiyena/14777/?l=az

14. https://az.wikipedia.org/wiki/Gigiyena

15. https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016805d8d25